Azadlıq Radiosu

INSAN HAQLARI

# Xanımı: 'Əfqan Sadıqova ailəsinə zəng vurmaq qadağan edilib'

1 saat öncə




Əfqan Sadıqov

Gürcüstandan deportasiya edildikdən sonra iyunun 8-də Binəqədi rayon Məhkəməsinin qərarı ilə həbs olunan **Əfqan Sadıqov**un ailəsi ilə əlaqəsinə məhdudiyyət qoyulub.

Bu barədə məlumatı iyunun 11-də jurnalistin mühacirətdə olan xanımı **Sevinc Sadıqova** yayıb. Onun sözlərinə görə, hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında (Kürdəxanı) saxlanılan ərinə ailəsi ilə əlaqə saxlamaq və zəng etmək qadağan olunub.

Sözügedən iddia ilə bağlı rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

8 iyun

## Əfqan Sadıqov həbs edilib

Binəqədi rayon Məhkəməsinin qərarı ilə "Azel.TV" internet kanalının rəhbəri **Əfqan Sadıqov** barəsində iyulun 30-dək həbs-qətimkan tədbiri seçilib.

Müdafiə tərəfinin açıqlamasına görə, Baş Prokurorluqda 2024-cü ildə Ə.Sadıqov barəsində açılmış cinayət işinin icraatı yenidən bərpa edilib. Bildirilir ki, iş üzrə zərərçəkmiş şəxslər Baş Prokurorluğun cinayət işinə xitam verilməsi haqqında qərarının ləğv olunması tələbi ilə Binəqədi rayon Məhkəməsinə müraciət ediblər. Məhkəmə iyunun 8-də şikayətə baxaraq iddianı təmin edib: Baş Prokurorluğun xitam qərarı ləğv olunub və iş yenidən istintaqa qaytarılıb.

Məsələ ilə bağlı Baş Prokurorluq, Binəqədi Rayon Məhkəməsi və digər aidiyyəti tərəflərdən rəsmi münasibət öyrənmək mümkün olmayıb.

## Xatırlatma

2024-cü ilin mayında Baş Prokurorluqda Ə.Sadıqov barəsində Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə cinayət işi açılmışdı. Həmin il avqustun 4-də o, Azərbaycan tərəfinin sorğusu əsasında Gürcüstanda saxlanılmışdı. Tbilisi Şəhər Məhkəməsi onun həbsi və Azərbaycana ekstradisiyası barədə qərar qəbul etsə də, Avropa İnsan Hüquqları Məhkəməsinin müdaxiləsi nəticəsində ekstradisiya prosesi dayandırılmışdı. Ə.Sadıqov 2025-ci ilin aprelində azadlığa buraxılıb.

Bu il aprelin 1-də Baş Prokurorluq Ə.Sadıqovun cinayət işinə xitam verib. Müdafiə tərəfinin məlumatına görə, aprelin 3-də Tbilisi şəhər Məhkəməsi bu qərarı əsas götürərək onun ölkədən çıxış qadağasını ləğv edib.

Buna baxmayaraq, aprelin 4-də gecə saatlarında Ə.Sadıqov yaşadığı evdən çıxarılaraq məhkəməyə aparılıb və dərhal Azərbaycana deportasiya edilib.

26 may

## Əfqan Sadıqov: 'Ölkədən çıxışıma qadağa qoyuldu'

Gürcüstandan Azərbaycana deportasiya edildikdən sonra xarici pasport alan "Azel TV"nin təsisçisi **Əfqan Sadıqov** ölkədən çıxışına icazə verilmədiyini açıqlayıb.

Bundan əvvəl jurnalistin yaxınları Ə.Sadıqovun Azərbaycana deportasiya olunmasına baxmayaraq, barəsindəki cinayət işinin ləğv edildiyini bildirmişdilər.

Ə.Sadıqov mayın 25-dən 26-na keçən gecə yaydığı videoaçıqlamasında vurğulayıb ki, gömrük nəzarəti zamanı ona bu qadağanın respublikanın Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi tərəfindən qoyulduğu bildirilib: **"Ölkədən çıxışıma qadağa qoyuldu..."**.

Məsələ ilə bağlı rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

Ə.Sadıqovun ailəsi isə hazırda xaricdədir.

30 aprel

## Əfqan Sadıqov xarici pasport alıb

Gürcüstandan Azərbaycana deportasiya edilən "AzelTV" təsisçisi **Əfqan Sadıqov**un bu gün, mayın 1-də xarici pasport aldığı bildirilir.

Bu barədə onun mühacirətdə olan xanımı **Sevinc Sadıqova** məlumat yayıb.

30 aprel

## Xanımı: Əfqan Sadıqova xarici pasport verilmir

Aprelin 5-də Gürcüstandan Azərbaycana deportasiya edilən "AzelTV" təsisçisi **Əfqan Sadıqov**un daxili işlər naziri Vilayət Eyvazova müraciət etdiyi bildirilir. Bu barədə aprelin 30-da onun mühacirətdə olan xanımı **Sevinc Sadıqova** məlumat yayıb. Onun sözlərinə görə, Ə.Sadıqovun xarici pasport almasına bir gün qalmış "yeni oyun" işə düşüb. Xanımının vurğuladığına görə, Masallı rayon "ASAN Xidmət" şöbəsindən zəng edərək Sadıqova bildiriblər ki, ona xarici pasport verilə bilməz, çünki o, axtarışdadır.

Hərçənd S.Sadıqovanın sözlərinə görə, aprelin 1-də Ə.Sadıqov barəsindəki cinayət işinə xitam verildiyi açıqlanıb.

"Biz sona qədər qanunu rəhbər tutaraq addım atacağıq. Zəhmət olmasa, axtarışı sistemdən silin. Əfqan Sadıqov xarici pasportunu alıb ailəsinin yanına gəlmək istəyir", –o bildirib.

Məsələ ilə bağlı nə "ASAN Xidmət"dən, nə də digər aidiyyəti dövlət qurumlarından rəsmi münasibət almaq mümkün olub.

10.04.2026

## Ailəsi Əfqan Sadıqovun taleyindən narahatdır

Aprelin 5-də Gürcüstandan Azərbaycana deportasiya edilən AzelTV təsisçisi **Əfqan Sadıqov**un taleyindən mühacirətdə olan ailəsi narahatdır. Xanımı **Sevinc Sadıqova** bildirir ki, bu gün, aprelin 10-da Ə.Sadıqov şəxsiyyət vəsiqəsi almaq üçün "ASAN Xidmət"ə müraciət edib. Onun sözlərinə görə, lakin "ASAN Xidmət" bu sənədi verməkdən imtina edib: "Səbəb kimi də Əfqanın hərbi qeydiyyatının sistemdən silindiyini və təkrar bazaya daxil edilməsi üçün Xətai rayonu Hərbi Komissarlığında qeydiyyata düşməsinin lazım olduğu bildirilib".

Xanımı vurğulayıb ki, Ə.Sadıqov iki dəfə həbsdə olub və həmişə də gedib öz şəxsiyyət vəsiqəsini sərbəst, rahat alıb: **"2022-ci ildə, sonuncu dəfə həbsdən azad olunduqda hətta beynəlxalq pasport aldı. Belə görünür ki, Əfqan Gürcüstanda olarkən, yaxud da o, Azərbaycana deportasiya ediləndən sonra hansısa məqsədlə, niyyətlə onun adını hərbi qeydiyyatdan siliblər".**

Ailəsi baş verənlərin məqsədli ola biləcəyindən narahatdır.

Bu açıqlamaya cavabdeh rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

## HRW: Gürcüstan risk altında olan azərbaycanlı jurnalisti deportasiya edib

Gürcüstan hakimiyyəti bu ölkədə mühacir həyatı yaşayan azərbaycanlı jurnalist **Əfqan Sadıqov**u Azərbaycana zorla qaytarmaqla onu siyasi motivli təqib və pis rəftar riskinə məruz qoyub. Bunu "Human Rights Watch" insan haqları təşkilatı aprelin 10-da bildirib.

Qurumun bildirdiyinə görə, hakimiyyət jurnalisti bu riskləri ölçüb-biçmədən deportasiya edib. Bu isə hər iki hökumətin Avropa İnsan Hüquqları Konvensiyasına uyğun öhdəliklərinə sadiqliyini sual altına alır.

**"Bu deportasiya baş verməməli idi, onun necə həyata keçirilməsi xüsusilə narahatedicidir"**, – "Human Rights Watch"un Avropa və Orta Asiya üzrə direktor müavini **Giorgi Qogiya** bildirib.

"Gürcüstan hakimiyyəti Sadıqovu təqib riski ilə üzləşdiyi bir ölkəyə qaytarıb, bu riski düzgün qiymətləndirməyib, sürətli prosedurlar isə ədalətliliklə bağlı ciddi narahatlıq yaradır", – o vurğulayıb.

"Human Rights Watch" Sadıqovun deportasiyasının Azərbaycanda jurnalistlərin və hökumətin tənqidçilərinin uzunmüddətli təqib olunması fonunda xüsusi narahatlıq doğurduğunu bildirir. Üstəlik, onun deportasiyasının Gürcüstan hakimiyyətinin Azərbaycan rəsmiləri ilə əlbirliyi, Avropa konvensiyası çərçivəsindəki öhdəliklərindən

yayınması ilə bağlı ciddi narahatlığa yol açdığını vurğulayır. Qurum Avropa Şurası üzvlərini Gürcüstanın hərəkətlərini araşdırmağa çağırır.

6 aprel

## Əfqan Sadıqovun saxlanıb buraxıldığı deyilir

"AzelTV" təsisçisi **Əfqan Sadıqov**un sərbəst buraxıldığı deyilir.

Bu barədə də onun xanımı Sevinc Sadıqova məlumat yayıb.

Məsələ ilə bağlı nə onunla, nə də Daxili İşlər Nazirliyi ilə danışmaq mümkün olub.

+++

Aprelin 5-də Gürcüstandan Azərbaycana deportasiya edilən "AzelTV" təsisçisi **Əfqan Sadıqov**un bu gün, aprelin 6-da Bakıda saxlandığı bildirilir.

Bu barədə onun mühacirətdə olan xanımı **Sevinc Sadıqova** məlumat yayıb: **"İndi aldığım məlumata görə, həyat yoldaşım Əfqan Sadıqovu polis saxlayıb, hara aparıldığını dəqiq bilmirəm (ehtimal var ki, Xətai rayonu 34-cü bölməyə)"**.

Bu məlumata Daxili İşlər Nazirliyi və başqa rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

5 aprel

## Əfqan Sadıqov Gürcüstandan Azərbaycana deportasiya edilib

“AzelTV” saytının rəhbəri **Əfqan Sadıqov** Gürcüstan Daxili İşlər Nazirliyinin qərarı ilə Azərbaycana deportasiya olunub və onun ölkəyə girişi 3 il müddətinə qadağan edilib. Bildirilir ki, jurnalist aprelin 5-nə keçən gecə Tbilisidəki evindən zorla aparılıb, bir neçə saat ərzində barəsində 2 min lari cərimə və deportasiya qərarı çıxarılaraq Bakıya gətirilib.

Vəkil **Tamta Mikeladze** bu prosesi iki ölkə hakimiyyətinin koordinasiyalı "xüsusi əməliyyatı" adlandırıb. Vəkil qeyd edib ki, aprelin 1-də Azərbaycanda jurnalistə qarşı cinayət işi dayandırılıb, aprelin 3-də isə Gürcüstan məhkəməsi onun hərəkət məhdudiyyətini ləğv edərək deportasiya üçün hüquqi zəmin hazırlayıb. Jurnalist polisə müqavimət və təhqirdə ittiham olunsa da, müdafiə tərəfi bu iddiaları rədd edir.

Avropa İnsan Haqları Məhkəməsi Sadıqovun ekstradisiyasının dayandırılması barədə müvəqqəti qərar çıxarmışdı. Hazırda jurnalistin Azərbaycanda olduğu və saxlanmadığı

bildirilsə də, hələlik onun özü ilə əlaqə saxlamaq mümkün olmayıb. Rəsmi qurumlar məsələyə münasibət bildirməyib.



Əfqan Sadıqov Tbilisidə etiraz aksiyasında

23 oktyabr

## Əfqan Sadıqova 14 sutka həbs verilib

Əfqan Sadıqov 14 günlük inzibati qaydada həbs olunub. AzadlıqRadiosunun gürcü xidmətinin məlumatına görə, bu qərar oktyabrın 23-də Tbilisi şəhər Məhkəməsində verilib.

Məhkəmədə Gürcüstan Daxili İşlər Nazirliyinin nümayəndəsi iddia edib ki, Ə.Sadıqov şəhər mərkəzində etiraz aksiyasında iştirakı zamanı yolu bağlayıb. O bildirib ki, polis onun və digər iştirakçıların yolu boşaltmasını əmr etsə də, onlar əmrə tabe olmayıblar.

Ə.Sadıqov etiraz aksiyasına çıxmasını müdafiə edib: **"Mən hüquqları pozulan gürcü xalqının tərəfdarıyam. İvanişvili diktaturanı dəstəkləyir, mən isə xalqı".**

O, hakimə bildirib ki, hər gün parlament binasının qarşısında keçirilən etiraz aksiyasına gedib: **"Əlavə edəcəyim heç nə yoxdur, buradan çıxan kimi yenə mitinqə gedəcəyəm...".**

Proses zamanı "İvanişvili diktatordur!" şüarlarını səsləndirən Ə.Sadıqov məhkəmə zalından çıxarılıb.

## Əfqan Sadıqov Tbilisidə saxlanılıb

**Əfqan Sadıqov** Tbilisidə inzibati qaydada saxlanılıb. Bu barədə AzadlıqRadiosunun gürcü xidməti məlumat yayıb.

Ə.Sadıqovun həyat yoldaşı **Sevinc Sadıqova**nın daha öncə dediyinə görə, jurnalist parlament binası qarşısında keçiriləcək aksiyaya getmək istəyirmiş, ancaq evdən çıxdıqdan sonra əlaqə saxlamaq mümkün olmayıb. Bir neçə saat ərzində ailəsi və hüquq müdafiəçiləri onun yerini müəyyənləşdirməyə çalışıblar. Son günlər həyat yoldaşının izlənildiyini deyən S.Sadıqova baş verənləri "Əliyev və İvanişvili rejimlərinin növbəti siyasi repressiyası" adlandırıb.

Sadıqova hüquqi yardım göstərən Sosial Ədalət Mərkəzinin direktoru **Tamta Mikeladze** jurnalistin saxlanılması faktını təsdiqləyib. Onun sözlərinə görə, jurnalistin yaşadığı binanın qarşısındakı müşahidə kamerası məhz onun evi tərk etdiyi anda söndürülüb.

Ə.Sadıqovun Rustaveli prospektinin "qanunsuz" bağlanması ittihamı ilə saxlanıldığı ehtimal olunur.

## Ailəsi Əfqan Sadıqovun taleyindən narahatdır

"AzelTV"nin hazırda Gürcüstanda yaşayan təsisçisi **Əfqan Sadıqov**dan ailəsi xəbər tuta bilmir.

Bu barədə onun həyat yoldaşı **Sevinc Sadıqova** məlumat yayıb. Onun vurğulamasına görə, bu gün, oktyabrın 22-də Ə.Sadıqov Gürcüstanda keçirilən etiraz aksiyasına, 329-cu gündür davam edən etirazlara qatılmaq üçün parlamentin qarşısına getməli idi: **"Lakin evdən çıxdıqdan sonra onunla heç bir əlaqə saxlamaq mümkün olmadı. Dünən və ondan əvvəlki gün isə Əfqan mənə bildirmişdi ki, izlənir".**

Hələlik, məsələyə Gürcüstanın hüquq-mühafizə orqanlarından münasibət almaq mümkün olmayıb.

Gürcüstanda son seçkilərdən sonra tez-tez kütləvi aksiyalar keçirilir. Xüsusilə "xarici agent" haqqında qanunun qəbulu, həmçinin, Avropa İttifaqına üzvlük məsələsinin 2028-ci ilə qədər dayandırması böyük etirazlara səbəb olub. Qərb ölkələri də bu respublikanın rəsmilərinə qarşı sanksiyalara başlayıb. Müxalifət arasında saxlananlar, həbs edilənlər var.

## Əfqan Sadıqovun bundan əvvəl həbsi

Ə.Sadıqov bu il aprelin 16-da təqribən 8 aylıq həbsdən sonra məhkəmənin qərarı ilə həbsdən buraxılıb. Məhkəmə onu 5 min lari (3 min manat) məbləğində girov qarşılığında azadlığa buraxmışdı.

Ə.Sadıqov 2023-cü ilin dekabrında ailəsi ilə birlikdə Gürcüstana gəlib. Ötən ilin iyulunda o, Gürcüstandan Türkiyəyə buraxılmadığını söyləyib. Avqustda Azərbaycanın sorğusu ilə Ə.Sadıqov həbs edilib. Bakıda o, pul tələb etməkdə ittiham olunur və ekstradisiyası istənirdi. Gürcüstan hakimiyyəti ona siyasi sığınacaq verməkdən imtina etmişdi. 2024-cü il noyabrın 28-də Tbilisi şəhər Məhkəməsi Ə.Sadıqovun Azərbaycana ekstradisiyası haqqında qərar qəbul etmişdi. Lakin qərar icra edilməmişdi. Ə.Sadıqov ittihamı qurama sayırdı.

## Xatırlatma

"AzelTV"nin təsisçisi və baş redaktoru Ə.Sadıqov daha əvvəl, 2016-cı il noyabrın 22-də isə Azərbaycanda saxlanmışdı. Ona Cinayət Məcəlləsinin 127.2.3-cü (xuliqanlıq niyyəti ilə təhlükəli üsulla sağlamlığa qəsdən az ağır ziyan vurma) maddəsi ilə ittiham irəli sürülmüşdü. O, icra hakimiyyətində bir qadına xəsarət yetirməkdə ittiham edilirdi. Ancaq Ə.Sadıqov ittihamı qəbul etmir, işi qurama sayırdı. 2017-ci il yanvarın 12-də Cəlilabad rayon Məhkəməsi onu 2 il yarım müddətinə azadlıqdan məhrum etmişdi. Həmin ilin noyabrında isə Ali Məhkəmə Ə.Sadıqovun cəza müddətini 2 il yarımdan 1 il yarımadək azaltmışdı. O, 2018-ci il mayın 23-də azadlığa çıxmışdı.

Azadlığa çıxdıqdan sonra da o, polisin qanuni tələbinə əməl etməməkdə günahlandırılaraq 30 sutka həbs cəzası almışdı. Ə.Sadıqov onda da ittihamı qəbul etmirdi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur